# 1. Makroiqtisadi vəziyyət

***ÜDM dinamikası – iqtisadi artım***




COVID-19 pandemiyasının mənfi təsirləri 2021-ci ildə davam etsə də, beynəlxalq konyunkturun nisbətən yaxşılaşması, sahibkarlığın dəstəklənməsi, peyvəndləmə prosesinin sürətlə davam etdirilməsi və karantin rejimindəki yumşalma 2021-ci ilin əvvəllərindən başlayaraq iqtisadi aktivliyin bərpasında özünü göstərmişdir. Belə ki, 2021-ci il üzrə həm neft-qaz sektorunda, həm də qeyri neft-qaz sektorunda iqtisadi artım müşahidə olunub.

Nəticədə 2020-ci il ilə müqayisədə 2021-ci ildə ÜDM real ifadədə 5.6% artaraq cari qiymətlərlə **92.9** mlrd. manat təşkil etmişdir. Adambaşına düşən real ÜDM 5.1% artaraq **9269.3 AZN və ya 5452.5 ABŞ dolları (əvvəlki ilin eyni dövründə 4272.2 ABŞ dolları)** olub.

ÜDM-in istehsal strukturunda əsas pay 54,3 % ilə malların istehsalına aid olub.




OPEC və tərəfdaş ölkələr ilə əldə edilən razılaşmalara əsasən, hasilatın azaldılması ilə bağlı öhdəliklərə ölkəmiz tərəfindən tam əməl edilməsi neft sektorunda istehsal edilən əlavə dəyərə təsir etsə də, artıq bu sektor üzrə müsbət dinamika müşahidə edilməyə başlamış və beləliklə müvafiq dövr üzrə 1.8 % artım qeydə alınmış və bu sektorun ÜDM-dəki payı 37.8 % təşkil etmişdir.




**Qeyri-neft iqtisadiyyatı**

Qeyri-neft sektorunda ötən ilin yanvar ayından artım müşahidə olunamağa başlanıb və bu sektor üzrə istehsal olunan əlavə dəyər ümumilikdə **7.2% artaraq,** ÜDM-in 62.2%-ni təşkil edib.




Qeyri-neft iqtisadiyyatı sürətlə bərpa olunub, o cümlədən, **qeyri-neft sənayesində 17.8%, nəqliyyat və anbar təsərrüfatında 16.0%, kənd, meşə və balıqçılıq təsərrüfatları 3.3%, informasiya və rabitə 6.1%, ticarət 5.3% və digər xidmətlər üzrə 5.1% artım qeydə alınıb.**

**Qeyri-neft sənayesi**

| *İqtisadi fəaliyyət növləri* | *Artım tempi* |
|---|---|
| Əczaçılıq məhsullarının istehsal | 58.3% |
| Kompüter, elektron və optik məhsulların istehsalı | 8.3% |
| Metallurgiya sənayesi məhsullarının istehsalı | 16.9% |
| Tütün məhsulları istehsalı | 54.0% |
| Kağız və karton istehsalı | 26.5% |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | 17.4% |
| Qida məhsulları istehsalı | 10.2% |
| Tikinti materialları istehsalı | 80.6% |

## Əsas kapitala investisiyalar

2021-ci il ərzində əsas kapitala **16127.0** mln. manat həcmində investisiya qoyulub. Əsas kapital qoyuluşlarının **73.1**%-i daxili investisiyalar, **26.9**%-i isə xarici investisiyalar hesabına formalaşıb. İnvestisiyaların **35.8**%-i neft, **64.2**%-i isə qeyri-neft sektoruna yönəldilib. Ümumi sərmayənin 10536,7 milyon manatı və ya 65,3 faizi məhsul istehsalı sahələrinin, 4560,8 milyon manatı (28,3 faizi) xidmət sahələrinin, 1029,5 milyon manatı (6,4 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb.




## Nəqliyyat

Pandemiya səbəbindən tətbiq olunan məhdudiyyətlər yük və sərnişin daşınmasına da təsir göstərib. Belə ki, 2021-ci ilin yanvar-dekabr ayları ərzində **193.9** mln. ton yük nəqliyyat sektorunda

fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən daşınıb və bu göstərici 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **2.8**% yuxarı olub. Eyni zamanda sərnişin daşınmasında 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çox və ya 1214,2 milyon sərnişinə xidmət göstərilmişdir.

**İstehlak bazarı**

2021-ci ilin yanvar-dekabr aylarında satılmış mallar və göstərilən xidmətlərdə 2020-ci ilin eyni dövrü ilə müqayisədə **3.7**% **artıma** nail olunmuşdur.

**Pərakəndə ticarət**

2021-ci ilin yanvar-dekabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 44,2 milyard manatlıq, o cümlədən 24,0 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 20,2 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2021-ci ilin yanvar-dekabr aylarında pərakəndə ticarət dövriyyəsi də əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə **3.2**% o cümlədən qeyri-ərzaq malları üzrə **3,9** %, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə isə **2.5**% artmışdır.




**İctimai iaşə və əhaliyə göstərilən ödənişli xidmətlər**

2021-ci ilin yanvar-dekabr aylarında ictimai iaşə dövriyyəsi real ifadədə **23.2**% artmış, əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri isə real ifadədə **4.8**% artmışdır.

**İnflyasiya və əhalinin gəlirləri**

İnflyasiya **6.7%** həddində qeydə alınmışdır. İnflyasiya dinamikasına dünya ərzaq qiymətlərinin bahalaşması və tənzimlənən qiymətlərin (dizel, benzin və su) artırılması da təsir göstərilmişdir.
Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiyməti 2021-ci ilin yanvar-dekabr aylarında 2020-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə 8.1%, 2021-ci ilin dekabr ayında noyabr ayına nisbətən isə 2.6% bahalaşmışdır. 2021-ci ilin yanvar-dekabr aylarında 2020-ci ilin yanvar-dekabr aylarına nisbətən spirtli içkilər üzrə 2.5%, tütün məmulatları üzrə 9.5%, qida məhsulları üzrə isə 8.2% qiymət artımı olmuşdur.
Qeyri-ərzaq məhsulları üzrə qiymətlərdə 2021-ci ilin yanvar-dekabr aylarında 2020-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə 5.1% artım müşahidə olunmuşdur.




2021-ci ilin yanvar-dekabr aylarında **əhalinin nominal gəlirləri** ötən ilin eyni dövrü ilə müqayisədə 2.6% artaraq 57.2 mlrd. manat təşkil etmişdir. Əhalinin gəlirlərinin davamlı artırılması üçün sahibkarlıq, məşğulluq, sosial rifah və maliyyə sabitliyini dəstəkləyən kompleks tədbirlər həyata keçirilməkdədir.

